**L.V.QOCAYEVA**
*dosent*
*e-mail: qocaleyla511@gmail.ru*
**:https://orcid.org/0009-0003-0382-4101**

**D.Ə.NAĞIYEVA**
*dosent*
*e-mail: dnagiyeva@mail.ru*
**:https://orcid.org/0009-0005-2839-8318**

**Azərbaycan Tibb Universiteti**
(Bakı şəh., S.Vurğun, 157)

**10.62021/0026-0028.2025.4.136**

# AKADEMİK KOMMUNİKASİYA VƏ ONUN FORMALARI

***Xülasə.*** *Akademik kommunikasiya digər ünsiyyət tiplərindən fərqli olaraq dilin qayda-qanunlarına, normalarına daha ciddi əməl edilməsi ilə seçilir. Məhz bu cəhətinə görə onu kommunikasiyanın ən yüksək mərhələsi kimi qiymətləndirə bilərik. Akademik kommunikasiya zamanı nitqin elmi üslubundan istifadə olunur və bu üslub elmi əsərlərin məzmununa və məqsədinə uyğunlaşdırılır. Buna görə də əminliklə söyləyə bilərik ki, akademik nitq öz elmiliyi ilə seçilir və digər ünsiyyət formalarından fərqlənir*
*Akademik kommunikasiyanın əhatə dairəsi günü-gündən artır, informasiya texnologiyalarının sürətli inkişafı elm və təhsil sahəsində davamlı yeniliklərin yaranmasına səbəb olur. Akademik kommunikasiya giriş, əsas hissə və nəticədən ibarətdir. Bu quruluş onun həm şifahi, həm də yazılı formasına aid edilir. Akademik kommunikasiyanın şifahi və yazılı növləri vardır. Şifahi və yazılı olmasından asılı olmayaraq hər iki formada elmi üslub gözlənilməli, akademik kommunikasiyanın quruluşu qorunub saxlanılmalıdır.*

***Açar sözlər:*** *akademik kommunikasiya, akademik yazı, şifahi və yazılı kommunikasiya*

Kommunikasiya insan həyatının mühüm tərkib hissəsi kimi xarakterizə olunur və real fəaliyyət kimi dəyərləndirilir. Kommunikasiya prosesi tarixin bütün dövrlərində müxtəlif formalarda təzahür etmişdir və bu gün də öz əhatəsini genişləndirməkdədir. "*Kommunikasiya insanın həyat və fəaliyyətinin zəruri hissəsini təşkil edir, onu müxtəlif sahələrdə müşayiət edir. İnsanların bir-biri ilə kommunikasiya qurmaq bacarığı onlara bəşər sivilizasiyasına müxtəlif töhfələr verməyə, nailiyyətlər əldə etməyə (kosmosu fəth etməyə, yerin təkinə getməyə və s.) kömək edir. Kommunikasiya şəxsiyyətin formalaşmasına, tərbiyəsinə, intellektual inkişafına kömək edir*" [4]. Kommunikasiya insanın həyat fəaliyyətini təmin edən mühüm faktorlardan biri hesab olunur və onu müxtəlif sahələrdə müşayiət etməklə daim onu insanlarla əlaqədə olmağa sövq edir. Kommunikasiya prosesi yalnız insanlararası anlaşmanı təmin etməklə bitmir, eyni zamanda şəxsiyyətin formalaşmasına, tərbiyə və təhsilinə, intellektual inkişafına kömək edir. Fərdin intellektual inkişafı, təhsili və bu sahədə uğur qazanması akademik kommunikasiya ilə təmin edilir. Akademik kommunikasiyanın mahiyyətinə toxunan N.Məmmədli yazır ki, "*Akademik kommunikasiyada geniş erudisiyaya, fundamental elmi baza və yaradıcılıq metodologiyasına, informasiyanın əldə edilməsi, işlənməsi, saxlanması və istifadəsi qaydalarına yiyələnmək səmərəli elmi-tədqiqat fəaliyyətinə malik olmaq, elmi məqalələr yazmaq, auditoriya qarşısında çıxış etmək bacarığı tələb edir*" [3, s. 173-174]. Verilən fikirlərə əsasən qeyd etmək olar ki, akademik kommunikasiya insanın elmi fəaliyyətini təmin edən, ona elmi mühitdə yol açan ünsiyyət tipidir.

Akademik kommunikasiyanın əhatə dairəsi günü-gündən artır, informasiya texnologiyalarının sürətli inkişafı elm və təhsil sahəsində davamlı yeniliklərin yaranmasına səbəb olur.

"*İnformasiya-kommunikasiya texnologiyalarının sayəsində müxtəlif xarakterli elmi tədbirlər – konfrans, simpozium, konqres və s. haqqında dünya elm ictimaiyyətini operativ olaraq məlumatlandırmaq və bu toplantılarda onların iştirakını təmin və təşkil etmək əvvəlki dövrlərlə müqayisədə qat-qat asanlaşıb. Bu kontekstdə beynəlxalq elm və təhsil məkanına inteqrasiya etmək, ümumi məsələlər haqqında eyni "dildə danışmaq" zərurəti yaranır*" [5]. Son dönəmlərdə müxtəlif xarakterli elmi tədbirlərin keçirilməsi, hətta uzaq məsafələrdə olan elm adamlarını belə bir-biri ilə yaxınlaşdırır, xaricə konfransa getmək imkanı olmayanlar evlərində onlayn şəkildə istədikləri elmi tədbirə qoşula bilirlər.

Hər bir ünsiyyət forması öz spesifikliyi ilə seçilir və akademik kommunikasiyanın da özünəməxsus xüsusiyyətləri vardır. Akademik nitq öz elmiliyi ilə seçilir və digər ünsiyyət formalarından fərqlənir. "*Akademik nitq dilin elmi fəaliyyətə xidmət edən xüsusi bir növüdür. Elmi kommunikasiya bu cür fəaliyyətin zəruri tərkib hissəsidir. Xüsusi fəaliyyət sahəsi sayılan elmin əsas məqsədi reallıqdakı hadisə və proseslərin obyektiv təsviri, izahı və proqnozudur. Elmi fəaliyyətin xüsusiyyətləri elmi üslubun əsas əlamətlərini ki, bunlara aşağıdakılar aid edilir: elmi bilik nitq predmeti kimi, elmi kommunikasiyanın hədəfi, elmi mətnin adresantının xarakteri, elmi mətnin müəllifinin obrazı*" [5]. Fərdlərin elmi fəaliyyəti elmi üslubun əsas əlaməti və göstəricisidir. Akademik nitq elmi üslubun canı əsas elementidir. Hər bir nitqin söylənildiyi məqamlar vardır və akademik nitq də hər yerdə söylənilmir. "*Akademiya və elmi müəssisələr sistemində beynəlxalq konfrans, simpozium, treninq və sairədə edilən məruzələr, çıxışlar, verilən elmi məlumatlar və s. akademik natiqliyə aid edilir. Bu, elm adamlarının, alimlərin, yüksək hazırlıqlı ziyalıların, müəllimlərin elmi-praktik konfranslarda, ali məktəb auditoriyalarında, radio və televiziya verilişlərində, müdafiə sovetlərində və s. yerlərdə etdiyi nitqdir*" [1, s. 115]. Akademik natiqliyin əhatə dairəsi müxtəlif elmi məsələləri və müəssisələri özündə birləşdirir. Akademik nitq öz məntiqiliyi, dəqiqliyi, sübuta və faktlara əsaslanması ilə tanınır. Akademik nitq sadəcə elə belə söylənilmiş nitq deyildir, o dəqiqliyi ilə digər nitq növlərindən fərqlənir.

Ümumiyyətlə, akademik nitqin mahiyyət etibarilə daha yaradıcı olması ilə seçilir. "*Nitqin bu növü yaradıcı əhəmiyyət kəsb edir, yaradıcı insanlar, alimlər və b. öz tədqiqatlarından, araşdırmalarından alınmış nəticələri həm yazılı (məqalələr, əsərlər, monoqrafiya şəklində), həm də şifahi yolla başqalarına çatdırırlar. Bu nitq o zaman yararlı sayıla bilir ki, insanlar onu başa düşsünlər, orada şərh olunanlara inansınlar*" [1, s. 116]. Məruzə ilə çıxış edən adama inanmaları üçün məruzəçinin nitqi reallığa söykənməli, dediklərini dinləyicilər düzgün dərk etməli və onlar tərəfindən qəbul edilməlidir.

Akademik kommunikasiya elmi mühitdə elmi bilik və bacarıqların bir-birinə ötürülməsinini təmin edir. "*Akademik nitqin əsas vəzifəsi elmi biliklərin elmi birlik və cəmiyyətlərin nümayəndələrinə, o cümlədən tələbələrə ötürülməsidir. Əgər dinləyicilər elmi birliyin bərabər hüquqlu nümayəndələridirsə, bu vəzifə elmi məruzə və elmi şərh janrında icra edilir. Əgər nitq tələbələrə ünvanlanıbsa, həmin nitqdə informasiyanın mənimsənilməsi elə bir tərzdə təmin edilməlidir ki, dinləyicilər ondan gələcək peşəkar fəaliyyətlərində istifadə edə bilsinlər*" [5]. Deməli, akademik nitqin əsas vəzifəsi elmi biliklərin paylaşılması və ünvanına çatdırılmasıdır.

Akademik kommunikasiyanın özünəməxsus xüsusiyyətləri vardır və burada əsas məqsəd mövcud elmi nəticələrin auditoriyaya çatdırılmasıdır. Akademik kommunikasiya tələbələrin və alimlərin qarşılıqlı əlaqəsini təmin edir və onları gələcək elmi fəaliyyətə hazırlayır. "*Akademik kommunikasiyanın əsas vəzifəsi elmi nəticələrin geniş auditoriyaya çatdırılması, tədqiqatçıların, tələbələrin və alimləri qarşılıqlı əlaqəsinin təmin olunması, elmi cəmiyyətin inkişafı, beynəlxalq elmi əməkdaşlıq üçün şərait yaratmaqdır. Müasir dünyada açıq elmi platformalar, onlayn konfranslar, qlobal elmi şəbəkələr və beynəlxalq elmi konsorsiumlar akademik kommunikasiyanın sərhədlərini daha da genişləndirir*" [6]. Akademik kommunikasiyada elmi müzakirələr informasiyanın geniş auditoriyaya çatdırılmasına istiqamətləndirir.

Akademik kommunikasiya elə qurulmalıdır ki, o tədris prosesinin keyfiyyətini artırsın, şagird və tələbələrdə elmi yaradıcılıq qabiliyyətini gücləndirsin. Ümumiyyətlə, elm və təhsildən danışırıqsa, bunları akademik kommunikasiya olmadan təsəvvür edə və ya tədqiq edə bilmərik. Akademik ünsiyyətdən onun elm və təhsildəki rolundan danışırıqsa, akademik yazıya da xüsusi diqqət yetirmək lazımdır. "*Akademik yazı elmin və ali təhsilin ayrılmaz atributlarından biridir. Daha dəqiq ifadə etmək lazım gələrsə, onun özəlliyini müəyyənləşdirən meyarlardan biridir. Akademik yazı qaydalarına əməl etmək savadlılıq, mədəniyyət və məsuliyyətin göstəricisidir*" [5]. Akademik yazı elm və təhsillə sıx bağlı olduğu üçün müəyyən tələblər gözlənilməklə tərtib olunur. Akademik yazı nümunələrinə monoqrafiya, tezis, məqalə, kurs işi, diplom işi, dissertasiya (magistr, fəlsəfə və elmlər doktorluğu) və s. aid edilir. Hər bir yazı formasının özünəməxsus xüsusiyyətləri olsa da, onları birləşdirən ümumi xüsusiyyətlər də vardır. İlk növbədə tədqiqatçı araşdıracağı mövzu haqqında məlumat toplayır, ədəbiyyat siyahısı tərtib edir. Daha sonra topladığı məlumatı sistemə salır. Hər bir elmi işin mütləq yazı quruluşu olur ki, bunun əsasında qarşıya qoyulmuş məqsəd yerinə yetirilir. İlk növbədə titul vərəqi verilir və bu hissədə tədqiqatçının adı, soyadı, mövzunun adı qeyd edilir.

Böyük həcmli elmi işlərdə (dissertasiya, monoqrafiya və s.) giriş hissədə tədqiqatın məqsədi, aktuallığı, obyekti və predmeti, elmi yeniliyi, metodları və s. qeyd olunur. V.Cəfərovun fikirləri dediklərimizi təsdiq edir. "*Giriş hissəsində tədqiq olunacaq problem və onunla bağlı suallar, tədqiqatın metodu açıqlanır. Bu zaman problemin aktuallığı, problemlə bağlı boşluqlar və həllini gözləyən istiqamətlərə nəzər tuşlanır. Problemin işlənmə səviyyəsi və müəllifin yanaşmasındakı yeniliklər açıqlanmalıdır. Müəllifin mövzuya marağını şərtləndirən amillər oxucuya aydın çatdırılmalıdır. Mövcud ədəbiyyatdakı yanaşmalar, çatışmazlıqlar və nöqsanlar qısa şərh olunmalıdır*" [2, s. 97].

Akademik yazının ən işlək forması elmi məqalələr hesab olunur. Məqalələr elmin müxtəlif sahələrinə aid mövzularda ola bilər. Bir məqalə yazmaq niyyətimiz olduqda ilk növbədə onun mövzusunu müəyyənləşdirmək lazımdır. Daha sonra həmin mövzu ilə bağlı ədəbiyyatlar nəzərdən keçirilməli və toplanmalıdır. Məqaləni yazarkən giriş, əsas hissə və nəticə də qeyd olunmalıdır. Açar sözlər məqalənin məzmunu haqqında qısa məlumat verir və onun vasitəsilə məqalədə nədən bəhs olunduğu aydınlaşır.

Tezis qısa quruluş formasına görə digər akademik yazı nümunələrindən seçilir. "*Tezis məruzədə, elmi əsərdə əsas məzmunun məntiqli, qısa quruluş formasıdır, işlə bağlı elmi məlumatları, məqsədi, tədqiqatın obyektini, mövzusunu, vəzifələrini, elmi yenilikləri, praktiki əhəmiyyətini, metodik əsaslarını, hipotezləri ehtiva edir və təsvir edir*" [3, s. 234].

Dissertasiya müəyyən elm sahəsi üzrə elmi dərəcə almaq məqsədilə yerinə yetirilən tədqiqat işi hesab olunur. Dissertasiyalar müxtəlif elm sahələrinə aid müəyyən edilmiş bir mövzu əhatəsində yazılır. Monoqrafiya da elmi mövzuda yazılmış əsər hesab edilir. "*Monoqrafiya yunan sözü olub "mono" – tək, "qrapfo" – yazıram deməkdir; elmi əsərlərin əsas janrlarından biri hesab olunur. Burada qarşıya qoyulan müəyyən problem tam və əhatəli şəkildə araşdırılır, eksperimental işlər nəzəri cəhətdən ümumiləşdirilir*" [3, s. 279]. Monoqrafiya elmi əsərlərin mühüm əhəmiyyət daşıyan janrı kimi qiymətləndirilir və fərdi yaradıcılıq məhsulu kimi dəyərləndirilir.

Akademik kommunikasiyanın şifahi formalarına mühazirə, məruzə və çıxış aid edilir. "*Mühazirə ali məktəblərdə, elmi idarələrdə, kütləvi tədbirlərdə istifadə olunur. Ali məktəblərdə müəyyən mövzu üzrə professor və ya dosentin söylədiyi mühazirə bu nitqə ən gözəl nümunədir. Mühazirə zamanı danışana yenidən sual verilə bilər. Bu zaman o suallara yerindəcə və ya nitqinin sonunda cavab verə bilər*" [8]. Mühazirəyə hazırlaşan şəxs dinləyicinin düşünmə qabiliyyətini də nəzərə almalıdır. O bilməlidir ki, mövzunu hansı formada təqdim etsə tələbələr onu daha tez və doğru anlaya bilərlər.

Məruzə də şifahi akademik kommunikasiyanın bir növü hesab olunur. "*Məruzənin mətni elmi əhəmiyyət daşımalı, fikirlər elmi ədəbiyyatdakı nəzəri məsələlərin məzmunu ilə əsaslandı-*

*rılmalı (yaxşı olar ki, ədəbiyyatlar göstərilsin), arqument və sübutların bütün formaları tətbiq olunmalıdır. Sübut və izahlar qarşıya qoyulmuş məqsəd, ideyaların təhlilinə, məzmuna və elmi nəticələrə yönəlməlidir*" [3, s. 209]. Məruzə də mühazirə kimi hər hansı bir mövzu haqqında əvvəlcədən hazırlaşmaqla söylənilən nitq hesab edilir. Məruzə də mühazirə kimi giriş, əsas hissə və nəticədən ibarətdir. Giriş hissədə söyləniləcək mövzunun əhəmiyyəti, aktuallığı, elmi yeniliyi əsaslandırılmaqla söylənilən fikirlərə şəxsin öz münasibəti də əksini tapır. Məruzə bitdikdən sonra o, müzakirə edilir və məruzəçiyə mövzu ilə bağlı müəyyən təkliflər verilir.

Çıxış da akademik kommunikasiyanın şifahi forması hesab olunur və müəyyən bir mövzuya fikir kimi başa düşülür. N.Məmmədli çıxışdan bəhs edərkən yazır ki, "*çıxış akademik kommunikasiyanın növlərindən biridir, planlı şəkildə, mətləbə görə söylənilir. 3-5 dəqiqə çəkən çıxış qeydlərə əsaslanır. Lazım gəldikdə, yəni nöqsan söylənildikdə məruzəçi çıxışa öz münasibətini bildirə bilir. Monoloji nitqin bu növü məruzə və hesabatdan sonra, eləcə də dissertasiya müdafiəsində elmi işlə bağlı səsləndirilir, ətraflı müzakirə olunur, sonda müvafiq qərar qəbul edilir*" [3, s. 211]. Çıxışlar mövzu ilə bağlı olaraq müxtəlif elmi, iqtisadi, hüquqi, siyasi mahiyyət kəsb edə bilər. Çıxış yığcam olmalı, müvafiq mövzudan kənara çıxmamalı, kobud ifadələrə, dialektlərə yol verilməməlidir.

Verilən fikirlərdən çıxış edərək akademik kommunikasiyanın təhsildə, elm sahəsində mühüm əhəmiyyət kəsb etdiyini qeyd edə bilərik. Akademik kommunikasiya fərdin elmi hadisələrə subyektiv yanaşmasını təmin edir, onun bilik və bacarıqlarının formalaşmasına imkan yaradır.

***Aktuallıq.*** Son dönəmlərdə akademik kommunikasiya və onun ünsiyyətdə rolu məsələləri mühüm tədqiqat mövzularından birinə çevrilmişdir. Təsadüfi deyildir ki, bu ildən başlayaraq magistratura pilləsində "Akademik yazı və etika" adlı fənn tədris olunmağa başlanılmışdır. Hər il davamlı olaraq akademik yazı ilə bağlı müxtəlif sayda məqalələr və kitablar nəşr olunmaqdadır. Məhz bu cəhəti nəzərə almaqla "Akademik kommunikasiya və onun formaları" adlı məqalənin nə dərəcədə aktual olduğunu qeyd etmək lazımdır.

***Elmi yenilik.*** Məqalədə akademik kommunikasiyanın mahiyyəti, tədrisdə rolu, tələbələrin nitqinin inkişafına, onların bir şəxsiyyət kimi yetişməsinə göstərdiyi təsir, onun formalarının yazıda rolu, digər kommunikasiya vasitələrindən fərqli olaraq daha yaradıcı olması məsələlərinə toxunulmuşdur.

***Tətbiqi əhəmiyyəti.*** Məqalənin mühüm tətbiqi əhəmiyyəti vardır. Belə ki, bakalavrlar, magistrantlar və "Azərbaycan dilində akademik və işgüzar kommunikasiya" fənnini tədris edən müəllimlər akademik yazı və onun formalarının hansı xüsusiyyətlərə malik olduğunu bu məqalədən də öyrənə bilərlər.

***Nəticə.*** Verilən fikirlərdən çıxış edərək akademik kommunikasiyanın təhsildə, elm sahəsində mühüm əhəmiyyət kəsb etdiyini qeyd edə bilərik. Akademik kommunikasiya fərdin elmi hadisələrə subyektiv yanaşmasını təmin edir, onun bilik və bacarıqlarının formalaşmasına imkan yaradır. Təsadüfi deyildir ki, akademik kommunikasiya və onun xüsusiyyətləri haqqında, demək olar ki, daimi şəkildə məqalələr, kitablar nəşr olunmaqdadır. Buna səbəb elm və texnologiyanın günü-gündən inkişaf etməsi və elmin müxtəlif sahələrinə aid əsərlərin yazılması üçün akademik yazının prinsiplərinin düzgün formada tətbiq edilməsi üçün belə əsərlərə ehtiyacın duyulmasıdır.

**Ədəbiyyat**


1. https://ru.scribd.com/document/702226845/1-Kommunikasiya anlay%C4%B1%C5%9F%C4%B1-Dil
2. Məmmədli, N. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya / N.Məmmədli, – Bakı: Elm və təhsil, – 2021, – 512 s.
3. https://ru.scribd.com/document/604806194/Akademik-V%C9%99-I%C5%9Fguzar-Kommunikasiya-15-Muhazire

4. https://qebulol.az/kommunikasiyalar/
5. Abdullayev, N. Nitq mədəniyyətinin əsasları / N.Abdullayev, Z.Məmmədov – Bakı: ADPU, – 2005, – 241 s.
6. Cəfərov, V. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya / V.Cəfərov, – Bakı, – 2021, http://static.bsu.az/w23/kafedralar/Dip/1122.pdf
7. https://mtk.az/wp-content/uploads/2025/05/Ezizova-Aygun-ADIAK.pdf
8. https://ru.scribd.com/document/697667278/Akademik-Kommunikasiya-Anlayi-I-Akademik-Kommunikasiyanin-n-VL

**L.V.Qodjayeva, D.E.Naghiyeva**

**Academic Communication and its Forms**

***Summary***

Academic communication, unlike other types of communication, is distinguished by a more strict adherence to the rules and norms of the language. It is precisely because of this aspect that we can evaluate it as the highest stage of communication. During academic communication, the scientific style of speech is used, and this style is adapted to the content and purpose of scientific works. Therefore, we can confidently say that academic speech is distinguished by its scientificity and differs from other forms of communication

The scope of academic communication is increasing day by day, the rapid development of information technologies leads to the emergence of continuous innovations in the field of science and education. Academic communication consists of an introduction, main part and conclusion. This structure applies to both its oral and written forms. There are oral and written types of academic communication. Regardless of whether it is oral or written, the scientific style should be expected in both forms, and the structure of academic communication should be preserved.

***Keywords:*** *academic communication, academic writing, oral and written communication*

**Л.В.Годжаева, Д.А.Нагиева**

**Академическое общение и его формы**

***Резюме***

Академическое общение, в отличие от других видов общения, отличается более строгим соблюдением правил и норм языка. Именно это позволяет оценивать его как высшую ступень коммуникации. В ходе академического общения используется научный стиль речи, адаптированный к содержанию и цели научных работ. Поэтому можно с уверенностью сказать, что академическая речь отличается своей научностью и отличается от других форм общения.

Объём академического общения расширяется с каждым днём, стремительное развитие информационных технологий приводит к появлению постоянных инноваций в сфере науки и образования. Академическое общение состоит из вступления, основной части и заключения. Эта структура применима как к устной, так и к письменной форме. Различают устную и письменную формы академического общения. Независимо от того, устное оно или письменное, научный стиль должен присутствовать в обеих формах, при этом структура академического общения должна быть сохранена.

***Ключевые слова:*** *академическая коммуникация, академическое письмо, устная и письменная коммуникация*

*Rəyçi: filol.ü.f.d., dos. P.Ə.Əzizova*

*Redaksiyaya daxil olub: 12.11.2025*